# XX ƏSRDƏ ÇİNDƏ UYĞUR MAARİFÇİLİYİ

**Günay Novruzova**
AMEA Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu, Azərbaycan
E-mail: gunay.tagiyeva91@gmail.com

*https://doi.org/10.59849/iscapltmt.2024.44*

**Xülasə.** Uyğurlar qədim tarixə malik türk xalqlarından biridir. Onlar memarlıq, yazı, rəssamlıq, musiqi və ədəbiyyat kimi mədəni sahələrə mühüm töhfələr vermişlər. XIX əsrin sonu və XX əsrin əvvəllərində meydana çıxan "mədəni inqilab" təhsil sahəsində inkişaf üçün mühüm bir təkan olmuşdur. XX əsrin ilk yarısında Şərqi Türküstanda (Sincan) Uyğur xalqının mübariz iradəsi nəticəsində dil və təhsil sahəsində əhəmiyyətli irəliləyişlər müşahidə olunmuşdur. Bu inkişaf ədəbiyyat, mədəniyyət və incəsənət sahələrinə də təsirsiz ötüşməmişdir. Uyğur xalqının tərəqqisində maarifçilərin rolu əvəzsiz olmuşdur. Onların fəaliyyəti nəticəsində yeni tipli məktəblərin açılması, jurnalların və qəzetlərin nəşri bu inkişafa güclü təkan vermişdir.
**Açar sözlər:** müasir Uyğur ədəbiyyatı, "üsuli-qədim" məktəbləri, "müasir tipli" məktəblər

## Uyghur enlightenment in China in the 20th century

**Gunay Novruzova**
Institute of Oriental Studies named after Academician Ziya Bunyadov of ANAS, Azerbaijan
E-mail: gunay.tagiyeva91@gmail.com

**Abstract.** The Uyghurs are one of the Turkic peoples with an ancient history. They made great contributions to such cultural fields as architecture, writing, painting, music and literature. The impetus for development in the field of education was the emergence of the "cultural revolution" at the end of the 19th and beginning of the 20th centuries. Although in East Turkestan (Sinjan) in the first half of the 20th century.
At the end of the 19th and beginning of the 20th century, thanks to the fighting determination of the Uyghur people, progress was made in the field of language and education. This development also affected literature, culture and art. The role of educators in the development of the Uyghur people is great. Thanks to their activities, the impetus for this development was given by the opening of new types of schools, the publication of magazines, magazines and newspapers.
**Keywords:** contemporary Uyghur literature, "Usuli-gadim" schools, "modern-type" schools

Qədim tarixə malik olan türk xalqlarından biri də uyğurlardır. Uyğurlar Hun türklərinin "Töləs" qoluna mənsubdurlar və uyğur sözünün tərcüməsi "müttəfiq, uyuşan" deməkdir. Uyğur adı Çin mənbələrində "şahin sürəti ilə hərəkət edən", "izləyən" mənaları ilə işlədilən ho-ei-ho, vei-ho, hu-ho kimi qeyd edilmişdir.

Uyğurların xalq olaraq formalaşması Göytürklərdən sonrakı, dövrə düşür. Uyğurların yazı dili və ədəbiyyatı bir çox türk xalqlarının ədəbi dili və ədəbiyyatının formalaşması və inkişafında mühüm rol oynamışdır. Onlar memarlıq, yazı, rəsm, musiqi kimi mədəniyyət sahələrinə, ədəbiyyata böyük töhfələr vermişlər. Uyğur dilində yazılmış Mani, Budda və Xristian dinlərinə aid müqəddəs kitablar, Yunan, Siryani, Çin və Sanskrit dinlərindən Uyğur dilinə tərcümə edilmiş əsərlər, Mani miniatürünə aid heykəllər, Uyğur Manixeizmi və Buddizmini əks etdirən ədəbi və sənət əsərləri dünya mədəniyyət və incəsənətinin şah əsərlərindəndir.

XX əsrdə beynəlxalq münasibətlərdə baş verən dəyişikliklər Şərqi Türküstan (Sincan Uyğur Muxtar vilayətinin tarixi adı) uyğurlarının siyasi və ictimai həyatına öz təsirini göstərmişdir. Belə ki,

Çində Homindan hökuməti ilə kommunistlər arasında hakimiyyət uğrunda mübarizə, SSRİ-nin regiondakı siyasi və iqtisadi proseslərə müdaxiləsi, Çində siyasi qarşıdurma fonunda Sincanda hakimiyyət dəyişiklikləri vilayətin mədəni həyatında da izlər qoymuşdu. Sincan XX əsrin 50-ci illərində Çin Xalq Respublikasının tərkib hissəsi elan olunana qədər burada etiraz və üsyanların nəticəsi olaraq 1933-cü ildə müstəqil Şərqi Türküstan Respublikası yaradılmış, üsyanın yatırılması ilə respublika da süquta uğramışdı. II Dünya müharibəsi dövründə isə vilayətdə başlanan uyğur hərəkatı yenə də Şərqi Türküstan Respublikasının yaradılması ilə nəticələnmişdi. Siyasi ziddiyyətlər elmi və mədəni mühitin inkişafına mane olsa da, əsrin əvvəlindən bütün Çində başlanan mədəni oyanış, ziyalı təbəqəsinin aktiv fəaliyyəti nəticəsiz qalmamış, öz bəhrəsini vermişdi.

XX əsrin əvvəllərində Şərqi Türküstanda mədəni inqilab dövründə baş verən tarixi dəyişikliklər uyğur ədəbi mühitinin sonrakı inkişafına zəmin yaratdı. 1978-1980-cı illərdə isə uyğur ədəbi mühiti daha da inkişaf etdi, mədəni və ədəbi inkişaf üçün yeni perspektivlər yarandı. İnkişaf etmiş nəşriyyat sahəsi həmin dövrdə canlandı, bir çox ədəbi jurnal və məcmuələr təsis edildi, ədəbi əsərlərin nəşri üçün şərait formalaşdı.

Mədəni inqilab maarifçilik sahəsində inkişafa təkan vermişdi. Bu yenilikləri Şərqi Türküstana gətirən xarici ölkələrdə təhsil almış, xüsusilə Osmanlı maarifçilərinin fəaliyyətindən bəhrələnən ziyalılar idi. Onlar Şərqi Türküstana geri qayıdaraq burada yeni tipli məktəblər təsis edirdilər. 1889-cu ildə İlidə "Hüseyniyyə məktəbi", 1905-də "Hünər Kəsip məktəbi" yaradılmışdı. Bu məktəblərin təsiri ilə Turpan, Piçan, Guçun, Qumul, Gulca və başqa şəhər və qəsəbələrdə yeni tipli məktəblər açılmışdı. O dövrün görkəmli türk ictimai və siyasi xadimləri Ziya Göyalp, Tələt Paşanın Sincana göndərdiyi Həbibzadə Əhməd Kamal 1914-cü ildə Kaşğara gəldi, müasir təhsil məktəblərinin açılmasına yardım və xalqı mübarizəyə təşviq etdi [8, s.131]. Həmin dövrdə "cədidçilik hərəkatı"nın təsirilə Şərqi Türküstanda çox sayda ziyalılar, yazıçı və dramaturqlar, yeni janrlarda şeirlər yazan şairlər yetişdi, qəzet və jurnallar nəşr olundu.

Cədid məktəbləri ilə "Üsuli-qədim" məktəbləri arasında böyük fərq var idi. "Üsuli-qədim" məktəblərində ancaq ərəb dili və din dərsləri keçirilirdi. Yeni təsis olunmuş üsuli-cədid məktəblərində isə elmin demək olar ki, bütün sahələrinə böyük əhəmiyyət verilirdi. Burada təkcə dini deyil, eyni zamanda dünyəvi elmlər də tədris olunurdu.

Türk dünyasında cədidçilik hərəkatı özünəməxsus yer tutur. Cədidçilik hərəkatı ilə bağlı müxtəlif dövrlərdə tədqiqatlar aparılmışdır. Lazzeri, Benningson, Baldauf, Komatsu kimi tədqiqatçılar önəmli fikirlər söyləmiş və bu hərəkatı dünyaya çatdırmışlar. Tədqiqatçılar qeyd edir ki, cədidçilik hərəkatının əsas qayəsi yeni/modern fikir axınının önə çəkilməsidir.

XIX əsrdə Şərqi Türküstanda da bu fikir axını təhsil sahəsində başlamış, iqtisadi, sosial həyatda öz təsirini göstərmişdir. Cədidçilik hərəkatının məqsədlərindən biri də sosial durğunluğu və əxlaqı dəyərləri yüksəlmək, cəhaləti aradan qaldırmaq idi.

XX əsrdə cədidçilik hərəkatı müxtəlif mərhələlərə bölünür.

1900-1925-ci illərdə cədidçilik hərəkatının ilk mərhələsində dərnəklər, məktəblər, nəşriyyat (qəzet və jurnallar) ön planda idi. Bu mərhələdə təhsil ilə yanaşı, siyasi asılılığın aradan qaldırılması cəhətləri də özünü göstərdi.

1925-1956-cı illərdə cədidçilik hərəkatına qoşulanlar siyasi partiyalar tərəfindən represiyaya məruz qalırdı.

1956-1985-ci il. Bu dövr isə daha çox yumşalmalar dövrü kimi qeyd olunur. "Xalq düşməni" damğası olan hər kəs bəraət qazanmışdı.

1985-1991-ci illərdə cədidçilik hərəkatı yenidən ön plana keçmişdi. 1988-ci il oktyabrın 12-də Özbəkistanda cədidçiliklə bağlı konfrans təşkil edildi. Azərbaycan, Tatarıstan, Rusiya və Özbəkistandan tədqiqatçılar cədidçiliklə bağlı öz fikirlərini və tədqiqatlarını bölüşmüşlər.

Dövrünün dahi şəxsiyyətlərindən olan İsmayıl Qaspıralının Krımda açdığı "Üsuli-cədid" məktəbləri daha sonrakı dövrlərdə türk dünyasındakı bütün islahatçıların ilham mənbəyi oldu.

Qaspıralı irəli sürdüyü “dildə, fikirdə, işdə birlik” şüarı ilə Türk dünyasını birləşdirməyi öz qarşısına siyasi məqsəd qoydu və bu siyasət uğrunda sona qədər mübarizə apardı.

Həmin dövrdə türk ideologiyası müxtəlif nəşrlər vasitəsilə işıqlandırılır, türkdilli kitab, məcmuə, qəzet və jurnallar Şərqi Türküstana gətirilirdi. Xüsusilə, Qaspıralının 1883-cü ildə nəşr etdirdiyi “Tərcüman” qəzetinin, “Şura”, “Til Yariş” kimi məcmuə və jurnalların maarifçiliyin inkişafında müstəsna rolu oldu. Şərqi Türküstanda uyğur xalqının cəhalətə və əsarətə qarşı mübarizəsi üçün onların savadlanmasında maarifçilik hərəkatının böyük rolu oldu, cədidçi fikir və görüşlər xalq tərəfindən mənimsənildi və dəstəkləndi [8, s.131].

XX əsrin birinci yarısında Şərqi Türküstanda dövlət mətbəələri mövcud olmasa da, xalq arasından çıxmış maarifçi ziyalılar və xeyriyyəçilər bu sahəni inkişaf etdirdilər. Kommunistlərin Homindan üzərində qələbəsindən sonra 1949-cu ildə Urimçi hökumətinə rəhbərlik etmiş Burhan Şəhidi “Sincanın 50 ili” adlı əsərində XX əsrin əvvəllərində Şərqi Türküstanda hələ də dövlət mətbəəsinin olmadığını və katiblərin əsərləri əl yazısı ilə köçürdüyünü qeyd edirdi. Buna baxmayaraq, ilk toxumlar artıq cücərmişdi. Hələ 1899-cu ildə uyğur maarifçiləri və xeyriyyəçiləri tərəfindən təsis olunmuş “Matbəə-yi-Hurşid” (“Nur mətbəəsi”) fəaliyyətə başlamışdı. 1905-ci ildə isə Kaşğardakı “Şivit” mətbəəsində “Sultan Satuk Buğraxan” və “Dünya coğrafiyası” adlı iki kitab nəşr olundu.

XX əsrin ortalarında Şərqi Türküstanın bir çox şəhərlərində, o cümlədən Urimçidə “Sincan” (Şincan qəzeti), “Oyğan” (Oyan), “Yalqın” (Alov), “Həqiqət” qəzetləri və digər qəzet, jurnal və məcmuələr çap olundu [8, s.133]

Şərqi Türküstanda Kaşğar 1911-ci ildə “An”(Fikir) adlı uyğur dilində qəzet nəşr olunmuşdur. “Sincan Uyğur Geziti” (Sincan Uyğur qəzeti) (1934), “Keşker Sincan Geziti” (Kaşğar Sincan qəzeti) (1949) çap edilmişdir. “İli Sincan Geziti” (“İli Sincan qəzeti) müxtəlif dövrlərdə, müxtəlif adlarla nəşr edilmişdir. 1924-cü ildə İlidə “İli fermerləri”, “İli dəryası”, “Azad Şərqi Türküstan”, “İnqilabi Şərqi Türküstan”, “Yeni Yol” adı altında uyğur, rus, qazax dillərində nəşr edilmişdir. “Cahangirlikke Karşı Birlik Sep Jurnalı” (İmperyalizmə qarşı birlik jurnalı), 1939-1942-ci illərdə isə “Cahangirlik Karşı Turuş Uyuşmisi” (İmperyalizmə qarşı mübarizə birliyi) adı altında uyğur dilində nəşr edilmişdir. “Xalq birliyi jurnalı”, “Yeni Sincan jurnalı”, “Cənubdan səs jurnalı”, “Xan Tanrı jurnalı”, “Şincan mədəniyyəti jurnalı”, “Çin Türküstan jurnalı”, “İttifaq jurnalı”, “Dünya ədəbiyyatından sitatlar” jurnalları dərc olunmuşdur. Daha sonra “Yurd”, “Yurddaşlar”, “Altay”, “Savaş xəbərləri” adlı jurnallar çap olunmuşdur.

Mətbuat cəmiyyətin aynası, ictimai şüurun, mənəviyyatın inikasıdır. Şərqi Türküstanda milli mətbuatın da yarandığı ilk gündən milli-mənəvi dəyərlərin daşıyıcısı, fəal təbliğatçısı və qoruyucusu kimi məsul bir missiyası yerinə yetirib. Müxtəlif dövrlərdə ağır sınaqlara məruz qalsa da, bütün çətinliklərə dözüb, öz yolundan dönməyib, daim həqiqətin çarçısı olub, cəmiyyəti düşündürən problemlər, dövrün mütərəqqi ideyalarını əks etdirib, xalqın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır.

XIX əsrin Avropa ədəbiyyatında istifadə edilməyə başlamış sərbəst vəznli şeir janrı qədim uyğur ədəbiyyatı üçün səciyyəvi olmuş, sonralar Çağatay ədəbiyyatında aradan qalxmış, XX əsrdə yenidən müasir uyğur ədəbi nümunələrində önəmli yer tutmağa başlamışdı. Ədiblər əsərlərində xalqı oyanışa, mübarizəyə, mədəniyyətə və birliyə səsləyirdilər. Ziya Səmədi, Zunun Kadiri, Armiyə Əli Sayrami (Nimşəhid) kimi şairlər daim xalqın görən gözü olmuşlar.

Çağdaş uyğur ədəbiyyatının inkişafında əsas rolu olan şairlərdən biridə Armiyə Əli Sayrami (Nimşəhid) olmuşdur. 1906-cı ildə anadan olan Armiyə Əli Sayrami Nimşəhid yaradıcılığa klassik şeir ənənəsini davam etdirməklə başlamışdır. Əsərlərinin əsasını vətənə məhəbbət, vətən həsrəti və sair təşkil edir. Yaradıcılığının ilk illərində qəzəl, məsnəvi, mürəbbe, müxəmməs, rübai kimi şeir janrlarında əsərlər yazmışdır.

Nimşəhidin yaradıcılığında vətənə məhəbbət mövzusu xüsusilə seçilir. Vətəninin hər qarışını vəsf etmiş, vətən o zaman vətən olar ki, onun üçün qan tökülsün, can verilsin demişdir. “Yaşlardın İltimas” (“Gənclərə lütf”), “Veten Qurbanlini Xatirisige” (“Vətən Şəhidləri Xatirəsinə”), “Veten Muhebbiti” (“Vətən sevgisi”), “Dostlirımğa” (“Dostlarıma”), “Qəbirdən avaz” (“Qəbirdən səs”), “Ayrıldım”, “Seğindim” (“Darıxdım”) adlı əsərlərində vətənə, torpağa və xalqa sevgi özünü göstərir. Əsərlərində vətən üçün canından keçən şəhidləri hörmətlə anır, vətənini satanlara, xainlərə, ikiüzlülərə nifrət hissi bəsləmiş və bunu da deməkdən çəkinməmişdir [4, s.85-98]

Abdulxaliq Uyğur (1901-1933) müasir uyğur ədəbiyyatında öz dəst-xəti ilə tanınan şairlərdəndir. Yaşadığı dövrdə əsərləri işıq üzü görməmişdir. Əsərləri 1947-ci ildə “Urimçidə” fəaliyyət göstərən “Sincan” qəzetində ilk dəfə nəşr olunmuşdur. Vəfatından sonra bir çox əsərləri toplanmış və çap edilmişdir.

Abdulxaliq Uyğur Çin Homendan Partiyası ilə amansızca haqlı mübarizə aparmışdı. Təəssüflər olsun ki, onun haqlı mübarizəsi ölümünə səbəb olmuşdur. Son anında da savaşından üz çevirməmişdir. Abdulxaliq Uyğurun “Oyan” şeirində Uyğur xalqını qəfləq yuxusundan oyanmağa çağırmışdı [2, s.18].

Mədəni inqilabdan sonrakı dövr yazıçıların həyatında mühüm dönüş nöqtəsi idi. Zordun Sabir, Əhət Turdi, Memtimin Hoşur, Xalidə İsrail, Məhəmməd Bagraş, Əhtəm Ömər, Calalidin Behram kimi yazıçılar o dövrün görkəmli nümayəndələrindəndir.

Müasir uyğur ədəbiyyatında xüsusi yer tutan şair və yazıçılarından biri də Zordun Sabirdir. 1937-ci ildə Şərqi Türküstanın Gulca qəsəbəsində kəndli ailəsində dünyaya gəlmişdir. Ağır həyat şəraitinə baxmayaraq, Zordun Sabir təhsil almış və dövrünün önəmli şəxsiyyətlərindən birinə çevrilmişdir. Gulca qəsəbəsində ilk təhsilini almış, sonra İli qəsəbəsində gimnaziyaya daxil olmuş, İli Darül-Müəllim məktəbini müvəffəqiyyətlə bitirmişdir. Çin dilini mükəmməl şəkildə öyrənmişdir.

1961-ci ildə “Tarım” jurnalında “Ağ ərik” adlı şeiri işıq üzü görmüşdür. Dövrünün bir sıra çətinlikləri ilə üzləşən Zordun Sabir ədəbiyyatdan uzaqlaşmışdır. 1979-cu ildə “Dolan gənclik” adlı nəsr əsəri ilə ədəbiyyata geri qayıtmışdır. Bu əsər ilə uyğur ədəbiyyatında deyil, eyni zamanda, Çin ədəbiyyatında da öz izlərini qoymuşdur.

Uyğur xalqını azad və xoşbəxt görmək arzusu ilə yaşayan və bu mübarizəli yolda həyatını qurban verən ədiblərdən biri də Lutpulla Həzim Axun oğlu Mütəllipdir. Müasir uyğur ədəbiyyatının inkişafında şair, dramaturq, felyetonçu Lutpulla Mutəlip xüsusi rol oynamışdır [9, s.148, 159]. İstedadlı ədib ilk təhsilini evdə atasından almış, daha sonra Qulca şəhərindəki tatar ibtidai məktəbinə oxumağa göndərilmişdir. Yeniyetməlik və gənclik illərində yazdığı üsyankar əsərlərinə görə onu “od ürəkli” adlandırırlar. Yazıçı əsərlərinə görə təqib olunmuşdur. Çin Milli Partiyasının hakimiyyətə gəlməsi Şincanda Lutpulla Mütəllip və onun kimi milli əhval-ruhiyyəli, yenilik tərəfdarı vətənsevərlərin vəziyyətini ağırlaşdırmışdı.

Çağdaş uyğur ədəbiyyatının yazıçılarından olan Xalidə İsrail 1952-ci ildə oktayabr ayında Kaşğarda məmur ailəsində dünyaya gəlmişdir. Atası İsrail bəy müəllim, anası Səlimə xanım məmur idilər. Yazıçı həyatı haqqında danışanda bunları qeyd edir. “Uşaqlıqda sakit və biraz da qorxaq biri olmuşam. Amma hər hansı hadisələrə fikir söyləməyi, düşünməyi sevirdim. Uşaqlıqda çox həssas idim. Mədəni inqilabçılar evimizə basqın edəndə belə, ilk dovşanlarımı düşünmüşdüm. Böyüdükcə mədəni inqilabın təsiri ilə müəllimlərimizə üsyan edirdik. Biz o dövrdə öz işığını söndürən kora bənzəyirdik. 16 yaşımda özümü dərk etdim. Özümü dərk etmə səbəbim isə kitab idi. Kitab həyatdakı işığım idi. Ümidimi, marağımı kitablarda tapdım və bu maraq sayəsində özümdə fərq etməyən ədəbiyyat yoluna yönəldim. Buna baxmayaraq, yazıçı olacağımı düşünməzdim. “Yaradıcılığa gec başlamasına baxmayaraq, qısa zaman ərzində əsərləri sevilmişdi. 1987-ci ildə “Eh Hayat” (“Ah həyat”), “Ana”, “Oyghinish” (“Oyanış”), “Eng Güzəl Xatirə” (“Ən gözəl xatirə”), “U Közlər” (“O gözlər”) adlı povestləri və “Kechmish” (“Keçmiş”), “Altın Kesh” (“Qızıl ayaqqabı”) romanlarını qələmə almış və çağdaş uyğur ədəbiyyatına öz imzasını atmışdır [3, s.2].

Müasir uyğur ədəbiyyatında hekayə janrı daha çox inkişaf etmişdi. Hekayə janrına müraciət edən yazıçılar içərisində Seyfuddin Əzizinin adını xüsusi qeyd etmək olar. O, “Yetim toxti” (“Yetim durdu”), “Zamanqul” (“Zamanqul”), “Menzirə” (“Mənzərə”), “Aççiq xatirə” (“Acı xatirə”) kimi əsərlərin müəllifidir. Bu əsərlərin xalqın milli-mənəvi təfəkkürünün formalaşmasında, maarifçiliyin təbliğində böyük rolu olmuşdur [6, s.149].

1934-cü ildən başlayaraq demək olar ki, bütün Şərqi Türküstanda təhsil islahatları keçirildi. Bu islahatlar öz növbəsində uyğur mədəniyyətinin sürətli inkişafına təkan verdi. Həmin dövrdə mədəniyyət və maarifçiliyin inkişafı ilə yanaşı, incəsənət də ön plana çıxdı. Uyğur mədəniyyətində teatrın inkişafı nəticəsində yeni kadrlar formalaşdı. Həmin sənətkarlar istər xarici, istərsə də yerli sənətkarların əsərlərini səhnələşdirirdilər. Uyğur ədəbiyyatında yeni dram əsərləri yazılmağa başladı. Abdulla Rozi (1919-1945) “Tümür Aka gəldi” (Teymur Ağa Gəldi), “Ögey Ana” kimi əsərlər yaratdı.

II Dünya müharibəsi dövründə vilayətdə baş verən siyasi proseslərin təsiri ilə uyğur ədəbi mühitində də durğunluq yarandı. Ancaq Şərqi Türküstan Respublikası yarandıqdan sonra yenidən mədəniyyətin bir çox sahələri – ədəbiyyat, teatr, mətbuat inkişaf etməyə başladı. Sincan vilayəti Çin Xalq Respublikasının tərkib hissəsi elan olunduqdan sonra yeni ictimai, elmi və mədəni inkişaf istiqamətinin əsası qoyuldu.

Beləliklə, XIX əsrin sonu – XX əsrin əvvəlində uyğur xalqının mübarizə əzmi sayəsində dil və təhsil sahəsində irəliləyişə nail olundu. Bu inkişaf ədəbiyyat, mədəniyyət və incəsənətə də təsir göstərdi. Maarifçilərin fəaliyyəti sayəsində yeni tipli məktəblərin açılması, jurnal, məcmuə və qəzetlərin çapı bu inkişafa təkan verdi.

**Ədəbiyyat**

1. Arş. Gör. Lokman Bahar. Çağdaş Uygur Edebiyatının Oluşması və Gelişmesi. bilig Türk Dünyası Sosyal Bilimler Dergisi | https://bilig.yesevi.edu.tr › icerik › 2830-published (onlayn məqalə).
2. Ayup, A. Abdulhaluk Uyğur hakkındakı çalışmalarda sorunlar. Uluslararası Uyğur Araştırmaları Dərgisi, 2017/9, s.18-21.
3. Hasancan, A. Günümüz Uygur Yazarı Halidə İsrail və əsərləri. Uluslararası Uygur Araştırmaları Dərgisi 2018/11, s.2-8.
4. Inayet, A. Nimşehit ve Edebi Faaliyyətləri üzərində. Türk Dünyası İncələmeleri Dergisi/ Journal of Turkish World Studies XI/I (Yaz 2011), s.85-98.
5. Kasapoğlu Ç.H. Abdurrehim Ötkürün Şiirleri İnceleme-Metin-Aktarma. – İstanbul: Milli Eğitim Bakanlığı Yayımları, 2000.
6. Kasapoğlu Ç.H. Çağdaş Türk Edebiyyatları-II. Çağdaş Uyğur Edebiyyatı. (Ünite-6). T.C. Anadolu Universiteti Yayımı No:2753. Açıköğretim Fakültesi Yayını No:1711. 2013, s.140-170.
7. Kasapoğlu, Ç.H. Uyğur Türklerinin Edebiyyatı. Türk Dünyası Edebiyyatları, –İstanbul: Milli Eğitim Bakanlığı yayımları,1998. s.595-641
8. Kaşğarlı, R.A. Çağdaş Uyğur edebiyyatı ve onun geleceyi. Uluslararası Uyğur Dergisi, 2014, s.129-145.
9. Kaşğarlı, R.A.. Çağdaş Uyğur şairlerinden Memtili Tefiq Efendının Hayatı və Eserleri.
10. Şekür, T. Uygur Türkleri Edebiyyatları, Türk Dünyası El Kitabi, Edebiyyat Türkiye Dışı Türk Edebiyyatları. – Ankara: Türk Kültürünü Araştırma Enstitüsü,1998, s.213-228.
11. Yağmur, S. Uyğur Türlerinin Destanlarındakı Tarihi Gerçekler. Uyğur Akademisi, 2021.
12. Həsənli, M. Abdurrahim Ötkürün “İz” romanında tarixi gerçəkliyin bədii ifadəsi. Müqayisəli ədəbiyyatşünaslıq 2021, 2, s.34-39